**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədrisi məsələləri üzrə prorektor v.i.e:
_________ dos. Zaur Məmmədov
"30" 01 2026-cı il

## Fənn sillabusu

**İxtisaslaşmanın şifri və adı:** 7001001-Azərbaycan dili və ədəbiyyatın tədrisi
**Fakültə:** Filologiya və ibtidai təhsil
**Kafedra:** Azərbaycan dili və ədəbiyyat
**I. Fənn haqqında məlumat:**
Azərbaycan maarifçi-realist ədəbiyyatı. Fənn proqramı: "Azərbaycan ədəbiyyatı tarixi" fənni üzrə "Elm və təhsil" nəşriyyatı, Bakı-2017
**Kodu:** İSF - B02.4
**Tədris ili:** I - 2025/2026
**Semestr:** II (yaz)
**Tədris yükü:** Cəmi: 180 saat. Auditoriya saatı-30 (15 s. müh. 15 s. sem.)
**Tədrisalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 6 kredit
**II.Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı:** Səfərli Elşad Məhərrəm oğlu fil.e.n.dosent
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Əli Məmmədov küçəsi - 40, 2 saylı tədris korpusu
**Məsləhət günləri və saatları:** V gün saat $11^{50}$-$12^{20}$
**E-mail ünvanı:** *elsad-1957@mail.ru*
**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

**Əsas ədəbiyyat**

1. F.Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, "Maarif" nəşriyyatı, 1974
2. M.Cəlal. P.Xəlilov. XX əsr Azərbaycan ədəbiyyatı, "Maarif" nəşriyyatı, Bakı, 1982
3. K.Talıbzadə. Azərbaycan ədəbi tənqidinin tarixi. "Maarif" nəşriyyatı. Bakı, 1984
4. N.Şəmsizadə. Ədəbiyyat nəzəriyyəsi. "Proqres", Bakı, 2012

**Əlavə ədəbiyyat**

5.Y.Qarayev. Poeziya və nəsr. "Yazıçı" nəşriyyatı, Bakı, 1979
6.Ə.Abdullayev. Maarif pərvanəsi. "Maarif" nəşriyyatı. Bakı, 1982

**IV. Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən başqa bir fənnin tədrisinə zərurət yoxdur

**V. Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni zamanda başqa fənnin tədrisinə ehtiyac yoxdur

**VI.Fənnin təsviri və məqsədi:** XIX əsrin əvvəllərində Azərbaycanın iqtisadi, ictimai, siyasi və mədəni-kulturoloji həyatında yeni bir mərhələ, gələcək inkişafa stimul ola biləcək dövr başlanır. Bu dövr Azərbaycanda elmi, ədəbi və fəlsəfi fikrin sürətlə yeni bir istiqamətdə inkişaf etməsilə səciyyələnir. Avropa və rus ictimai-kulturoloji fikri ilə inteqrasiyaya istiqamətlənən Azərbaycan mədəniyyətinin qabaqcıl nümayəndələri, ədəbi simaları milli ənənələr kontekstində dövrün yeni tipli ədəbiyyatını, elm və fəlsəfəsini də yeni müstəvidə yaratmağ məharətini nümayiş etməyi bacardılar.
Bu dövrün ədəbi fikrinin əlamətlərinə ilk Azərbaycan maarifçiləri: A.Bakıxanov, M.Ş.Vazeh, Z.Şirvani kimi XIX əsrin birinci yarısında fəaliyyət göstərən ədəbi şəxsiyyətlərin yaradıcılığında rast gəlirik. Sonrakı dövrlərdə isə bu ənənənin müxtəlif

ədəbiyyat adamlarının əsərlərində geniş təzahürləri iləs rastlaşırıq. Şübhəsiz ki, bu amil XIX əsr çərçivəsində milli realizmin-maarifçilik ədəbiyyatının inkişafını da şərtləndirmiş oldu.
Buna görə də XIX əsr çərçivəsində təcəssümünü tapan ilkin maarifçi-realist ədəbiyyatının öyrənilməsi, bakalavr və magistr pilləsi tələbələri üçün zəruri bir amil kimi faktlaşır. Bu baxımdan tədrisi zərurət kimi ortaya çıxan "Azərbaycan maarifçi-realist ədəbiyyatı" fənninin magistr tələbələrə mənimsədilməsinin onlar üçün əhəmiyyətli olacağı danılmazdır.

**VII.Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII.Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.
Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:
- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.
İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.
Qiymət meyarları aşağıdakılardır:
- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.
Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| Bal aralığı (göstərilən ballar daxil olmaqla) | Hərflə işarəsi | Sözlə yazılışı |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX.Davranış qaydalarının pozulması:**
Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim mövzu planı**: *Mühazirə 15 saat, seminar 15 saat.* ***Cəmi: 30 saat***

| № | *Keçirilən mühazirə və seminar məşğələlərinin məzmunu* | *Saat* | | Tarix |
|---|---|---|---|---|
| | | M | S | |
| 1. | Maarifçilik ədəbi cərəyanı (s.352-358) | 2 | 2 | |
| 2. | Tənqidi-realist konsepsiyasının yaranması. M.F.Axunzadə. İlk Azərbaycan maarifçiləri (s.41-45) | 2 | 2 | |
| 3. | Maarifçi-realist ədəbiyyatın təşəkkülü və formalaşaması. (s.121-128) | 2 | 2 | |
| 4. | S.S.Axundov maarifçi-realist ədəbiyyatın görkəmli nümayəndəsi kimi | 2 | 2 | |
| 5. | S.M.Qənizadə və maarifçi-realist ədəbiyyatı | 2 | 2 | |
| 6. | M.Ə.Sabir, Abdulla Şaiq və A.Səhhətin uşaq lirikasında maarifçi-realist ideyalar | 2 | 2 | |
| 7. | S.Ə.Şirvani və R.Əfəndiyevin maarifçi-realist yaradıcılığı | 2 | 2 | |
| 8. | Azərbaycan uşaq mətbuatının yaranması. "Dəbistan", "Məktəb" və s. jurnallar. | 1 | 1 | |

**XI. Fənn üzrə tələblər:**
XIX əsrin əvvəllərində Azərbaycanın iqtisadi, ictimai, siyasi və mədəni-kulturoloji həyatında yeni bir mərhələ, gələcək inkişafa stimul ola biləcək dövr öyrənməlidir.
Bu dövr Azərbaycanda elmi, ədəbi və fəlsəfi fikrin sürətlə yeni bir istiqamətdə inkişafı ilə bağlı məlumatları bilməlidir.

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**
-mühazirə, seminarlar və praktiki tapşırıqlar;
-video və audio mühazirələr;
-müstəqil iş / araşdırma
-debat

**XIII. Fənn üzrə təlimin nəticələri:**
Avropa və rus ictimai-kulturoloji fikri ilə inteqrasiyaya istiqamətlənən Azərbaycan mədəniyyətinin qabaqcıl nümayəndələri, ədəbi simaları milli ənənələr kontekstində dövrün yeni tipli ədəbiyyatını, elm və fəlsəfəsini də yeni müstəvidə öyrənir.
Bu dövrün ədəbi fikrinin əlamətlərinə ilk Azərbaycan maarifçiləri: A.Bakıxanov, M.Ş.Vazeh, Z.Şirvani kimi XIX əsrin birinci yarısında fəaliyyət göstərən ədəbi şəxsiyyətlərin yaradıcılığı əsasında tanışlıq və bu sahədə mühüm biliklərə sahib olmaq.

## XIV.Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:

## XV: Kollokvium sualları:

### I Kollokvium sualları
1.Maarifçilik ədəbi cərəyanı
2.Tənqidi-realist konsepsiyanın yaranması
3.M.F.Axundzadənin maarifçi-realist konsepsiyası
4.İlk Azərbaycan maarifçiləri
5.A.Bakıxanovun elmi-bədii irsində maarifçilik ideyaları
6.Azərbaycan maarifçiliyinin ədəbi-nəzəri xüsusiyyətləri
7.M.Ş.Vazehin maarfiçilik görüşləri
8.Zeynalabdin Şirvaninin görüşlərində elm və maarifin rolu
9.Maarifçi-realist ədəbiyyatın təşəkkülü və formalaşması
10.S.S.Axundov maarifçi-realist ədəbiyyatın nümayəndəsi kimi

### II Kollokvium sualları
1. S.M.Qənizadə və maarifçi-realist ədəbiyyat
2.S.M.Qənizadə irsinin vətənpərvərlik və tərbiyə motivləri
3.M.F.Axundzadənin maarifçi-realist əsərləri
4.S.M.Qənizadənin "Məktubati-Şeyda bəy Şirvani" romanı
5.R.Əfəndiyevin maarif, elm və tərəqqi motivli yaradıcılığı
6.R.Əfəndiyevin uşaq lirikası
7.Uşaq lirikasının inkişafında M.Ə.Sabirin rolu
8.A.Səhhət və uşaq ədəbiyyatı
9.Azərbaycanda uşaq mətbuatının yaranması
10.S.Ə.Şirvani və A.Şaiqin maarifçi-realist şeirləri

## XVI. İmtahan sualları:

1. Maarifçilik ədəbi cərəyanı
2. Tənqidi-realist konsepsiyanın yaranması
3. M.F.Axundzadənin maarifçi-realist konsepsiyaı
4. M.F.Axunzadənin maarifçi-realist əsərləri
5. "Kəmaldüdövlə məktublar"ının maarifçilik tendensiyası
6. M.F.Axunzadənin "Aldanmış kəvakib" povesti ilk maarfiçi-realist nəsr kimi
7. İlk Azərbaycan maarifçiləri
8. A.Bakıxanovun elmi-bədii irsində maarifçilik ideyaları
9. Azərbaycan maarifçiliyinin ədəbi-nəzəri xüsusiyyətləri
10. M.Ş.Vazehin maarifçilik görüşləri
11. Zeynalabdin Şirvaninin görüşlərində elm və maarifin rolu
12. Maarifçi-realist ədəbiyyatın təşəkkülü və formalaşması
13. S.S.Axundov maarifçi-realist ədəbiyyatın nümayəndəsi kimi
14. S.S.Axundovun "Qorxulu nağıllar"ında maarifçi-realizmin ifadəsi
15. S.M.Qənizadə irsinin vətənpərvərlik və tərbiyə movtivləri
16. S.M.Qənizadə və maarifçi-realist ədəbiyyat
17. S.M.Qənizadənin "Məktubati-Şeyda bəy Şirvani" romanı
18. R.Əfəndiyevin maarif, elm və tərəqqi motivli yaradıcılığı
19. R.Əfəndiyevin uşaq lirikası
20. Uşaq lirikasının inkişafında M.Ə.Sabirin rolu
21. A.Səhhət və uşaq lirikası

22. Azərbaycanda uşaq mətbuatının yaranması
23. S.Ə.Şirvani və A.Şaiqin maarifçi-realist şeirləri
24. Maarifçi ədəbiyyat və mətbuat
25. Uşaq ədəbiyyatının inkişafında "Dəbistan", "Rəhbər" və "Məktəb" jurnallarının rolu
26. H.Zərdabi və maarifçi-realist ədəbiyyatın inkişafında "Əkinçi"nin rolu

**"Azərbaycan maarifçi-realist ədəbiyyatı"** fənninin sillabusu **7001001-Azərbaycan dili və ədəbiyyatın tədrisi** ixtisaslaşması (proqramı) üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. **"Azərbaycan dili və ədəbiyyat"** kafedrasının 30 yanvar 2026-cı il tarixli iclasında təsdiq olunmuşdur.
(Protokol № 05).

**Fənn müəllimi:** **dos. E.M.Səfərli**

**Kafedra müdiri:** **dos.Q.İ.Rufullayev**